**N.Ə.QƏDİROVA**
*e-mail: nilufar3010@gmail.com*
**:https://orcid.org/0009-0005-4810-6642**

**Azərbaycan Universiteti**
(Bakı şəh., C.Hacıbəyli küç., 71)

**10.62021/0026-0028.2025.4.308**

# MODERNİZM DÖVRÜNÜN MƏDƏNİ VƏ FƏLSƏFİ MƏNZƏRƏSİ

***Xülasə.*** *Məqalə XIX əsrin sonu – XX əsrin əvvəllərində sənət, fəlsəfə və ədəbiyyatda meydana gələn dərin mədəni dəyişimin ifadəsi kimi formalaşan modernizm cərəyanının tədqiqinə həsr olunub. Modernizm köhnə, konservativ dəyərlərin inkarı və yeni yaradıcılıq prinsiplərinin axtarışı ilə səciyyələnirdi. Modernistlər üçün əsas məqsəd gerçəkliyi deyil, insanın daxili dünyasını, onun şüuraltı və intuisiya səviyyəsindəki təcrübəsini ifadə etmək idi. Məqalədə həmçinin H.Levin, S.Spender, F.Kermod və M.Bredberi kimi tədqiqatçıların mülahizələri təhlil olunur, modernizmin çoxmənalı və ziddiyyətli mahiyyəti vurğulanaraq onun həm tarixi mərhələ, həm də bədii özünüifadə forması olduğunu qənaətinə gəlinir.*

***Açar sözlər:*** *modernizm, fəlsəfə, insan, mədəni böhran, estetik inqilab*

XIX əsrin ortalarının cəmiyyəti incəsənətdə, memarlıqda, ədəbiyyatda və ümumilikdə mədəniyyətdə modernizm cərəyanının meydana çıxmasına hazır idi. Modernizm realist və romantik bədii modellərə qarşı çıxmaqla yanaşı, naturalizm, simvolizm və neoromantizm kimi cərəyanlarla müəyyən ideya və estetik bağlılıqlar saxlayan, XX əsrin əvvəllərində meydana gəlmiş və mövcud incəsənətin ənənəvi, konservativ, artıq funksionallığını itirmiş formalardan ibarət olduğunu iddia edən sənət istiqamətlərinin ümumi adıdır. Modernizmin ideya-estetik mahiyyəti XIX və XX əsrlərin qovşağında hökm sürən mürəkkəb mədəni-mənəvi mühitlə sıx şəkildə əlaqəlidir. Həmin dövr bir tərəfdən köhnə, mütləq və dəyişməz sayılan sistemlərin süqutu, digər tərəfdən isə müxtəlif estetik və fəlsəfi yanaşmaların eyni zamanda mövcudluğu ilə səciyyələnən keçid mərhələsi idi. Bu mərhələdə mədəni düşüncənin polifonikliyi, müxtəlif istiqamətlərin eklektizmdən sintezə qədər uzanan qarşılıqlı təsirini mümkün etmiş, elmin, fəlsəfənin və bütövlükdə mədəni anlayışların mozaik xarakter almasına gətirib çıxarmışdı.

Terminoloji baxımdan “modernizm” anlayışının müəyyən semantik qeyri-müəyyənliyi və getdikcə artan, demək olar ki, aradan qaldırılması mümkün olmayan ziddiyyəti hələ də tədqiqatçıları narahat edir. 2008-ci ildə Amerikalı tarixçi Piter Qey “Modernizm: Bodlerdən Bekketə cəhalətin cazibəsi və sonra” adlı kitabında qeyd edir ki, “Modernizmə nümunələr gətirmək asan olsa da, ona tərif vermək çətindir” [7, s. 1].

1970-ci illərin ortalarında ingilisdilli ədəbiyyatşünaslıqda modernizm sözündən istifadə edilən tədqiqatların sayı cəmi bir neçə nümunə ilə məhdudlaşırdı. ABŞ-ın ən nüfuzlu ensiklopediyalarından biri olan “Amerika Ensiklopediyası”nın 1970-1980-ci illər buraxılışlarında “Modernizm” anlayışına dair heç bir ayrıca məqalə yer almamışdı. Müharibədən sonrakı üç onillik ərzində “modernizm” sözündən istifadə edilən cəmi dörd kitab və ondan çox olmayan sayda məqalə nəşr edilmişdi. Harri Levinin “Modernizm nə idi?” başlıqlı yazısı bu istiqamətdəki ilk tədqiqatlardan biri hesab olunur.

H.Levinin mövqeyinə əsasən modernizm ədəbiyyat hadisəsi kimi XX əsrin əvvəllərinə aid konkret bir dövrü əhatə edir. 1962-ci ilin baxış bucağından isə bu dövr artıq geridə qalmış, “keçmişin bir mərhələsi” kimi qəbul olunmalıdır. Lakin bununla yanaşı, modernizmin ideya-estetik təbiəti Avropa mədəniyyət tarixinin geniş intellektual kontekstində dərin köklərə malikdir.

H.Levindən bir il sonra Stiven Spenderin "Müasirliyin (və ya modernin) mübarizəsi" adlı kitabı nəşr olundu. Bu əsərdə modernizm sözünün terminoloji mənasını müəyyənləşdirmək kifayət qədər çətindir. S.Spender XX əsrin əvvəllərinin ədəbi mənzərəsini prosesi daxildən müşahidə edən bir iştirakçı kimi təhlil etdiyindən bu, onun baxış bucağını Harri Levinlə müqayisədə həm dar, həm də kəskin edirdi. S.Spender üçün "modernlik" "müasirlik" anlayışından fərqli olaraq "indinin misilsizliyini", onun əvvəllər görünməmiş yeniliyini daha dərindən dərk edən yazıçıları ifadə edirdi.

1968-ci ildə britaniyalı tədqiqatçı Frank Kermod nəşr olunan məqalələr toplusunda artıq modernizmin bir neçə növünü fərqləndirirdi: paleo-modernizm (1910-1920-ci illər) və neo-modernizm (1930-cu illərdən sonrakı dövr və müasir mərhələ). F.Kermod həmçinin modern və avanqard anlayışları arasında fərq qoyur, eyni zamanda modernizm və postmodernizm arasında müəyyən əlaqələri müəyyənləşdirirdi.

1976-cı ildə Malkolm Bredberi və Ceyms MakFarlanın redaktorluğu ilə hazırlanmış "Modernizm: 1890-1930-cu illər Avropa ədəbiyyatına bələdçi" adlı geniş həcmli tədqiqat müəlliflərin qeyd etdiyi kimi "dünya ədəbiyyatında modernizm üzrə əsas və açar mənbə" [11, s. 11] statusu qazanmışdı. Onların fəaliyyəti nəticəsində sonrakı illərdə nəşr olunan ingilis və Amerika terminoloji lüğətləri və ensiklopediyalarında modernizm haqqında məqalələr yer alsa da, bir qayda olaraq, belə bir qeyd ilə başlayırdı: "termin əhatəli, lakin qeyri-müəyyəndir" [6, s. 515].

M.Bredberi və C.MakFarlanın fikrincə, modernizm konkret bir üslub deyil, əksinə, yüksək dərəcədə fərdiyyətçiliklə səciyyələnən üslub axtarışıdır. Bu, anlayışın daxilindəki "ikiqat ziddiyyəti" doğurur və həmin ziddiyyəti müəlliflər İrvinq Hounun irəli sürdüyü tezisə istinad etməklə aradan qaldırmağa çalışırlar: "Modernizm heç bir dominant üslub müəyyən etmir; əgər müəyyən edərsə, o zaman öz mahiyyətini inkar etmiş olur, çünki bu halda artıq modern olmaqdan çıxır" [8, s. 32].

Beləliklə, ortaq üslubi əlamətlərin tapılmaması, hətta onların prinsip etibarilə mövcud ola bilməməsi modernizmin özünün xarakterik xüsusiyyəti kimi qəbul edilir.

Modernizmlə bağlı bu "qeyri-müəyyənlik" (daha dəqiq desək, "bulanıqlıq") bir sıra amillərlə əlaqəli idi. "Modernizm" anlayışı bir tərəfdən, müəyyən bir dövrlə, daha dəqiq, bir neçə tarixi mərhələ ilə eyniləşdirilirdi; bu mərhələlərin sərhədləri isə həm coğrafi, həm də baxış bucaqlarından asılı idi. Digər tərəfdən, eyni anlayış çətiri altında modernizm dövrünün əsas ideya-estetik meyilləri də birləşdirilirdi ki, bu da anlayışın çoxmənalılığını daha da artırırdı. Bu məqamda birləşdirici konseptual çərçivəyə daxil olan ideyalar bəzən daxili ziddiyyət daşıyır, bəzən isə bir-birini tam inkar edirdi.

Klassik fəlsəfədən fərqli olaraq modernizm yalnız dünyanın təsviri ilə kifayətlənmir, həm də insanın onu dəyişdirmək potensialından çıxış edirdi. Bu baxımdan K.Marks modernist düşüncənin əsas ideyalarından birini belə ifadə etmişdir: "Filosoflar dünyanı yalnız müxtəlif formalarda izah etmişlər, halbuki əsas məsələ onu dəyişdirməkdir" [12, s. 20]. Klassik fəlsəfədə insan həyatı özündən asılı olmayan müəyyən başlanğıclardan qaynaqlanırdısa, modernist fəlsəfə bu yanaşmanı qəbul etmir. Bu istiqamətdə formalaşan yeni düşüncəyə görə, insanın iradəsi, şüuraltı prosesləri kimi amillər dünyanın və tarixi proseslərin formalaşmasının hərəkətverici qüvvə kimi çıxış edir.

Həm intuitivistlər, həm də modernistlər bütün dövrlərdə mədəniyyəti dünyanın intuitiv dərk olunmasının, duyulmasının və ifadə edilməsinin əsas vasitəsi hesab etmişlər. Bu kontekstdə intuitivizmin idealist nümayəndələrindən biri olan Anri Berqson qeyd edirdi ki, yalnız intuisiya insanı bilavasitə həqiqətə yaxınlaşdıra bilər və bu dərk prosesi rasional qavrama və ətraf mühiti duyma səviyyəsindən kənarda baş verir [4, s. 125]. A.Berqsonun fikrincə, ağıl insan psixikasının dərin qatlarını izah etməkdə acizdir, bu, yalnız intuisiya vasitəsilə mümkündür. O həmçinin dilin də reallığı bütün çalarları ilə ifadə etmək gücündə olmadığını vurğulayırdı.

Modernist fəlsəfi düşüncənin əsas istiqamətlərindən birini insanın daxili potensialına, iradəsinə və yaradıcılıq gücünə inam təşkil edir. Bu baxımdan alman filosofu Fridrix Nitşe in-

sanı “fövqəlinsan” adlandıraraq onu ilahi qüdrətə sahib varlıq kimi təqdim etmişdir. F.Nitşenin konsepsiyasına görə, “Tanrının ölümü” ideyası insanın mənəvi azadlığının başlanğıc nöqtəsidir. O, hesab edirdi ki, fövqəlinsan mövcud əxlaqi və dini dəyərləri inkar edərək yeni prinsiplər formalaşdırmalıdır. Bu prinsiplər isə cəmiyyətin, dinin və ya ənənəvi əxlaq normalarının təsiri ilə deyil, insanın daxili dünyasından, mənəvi gücündən və ruhunun orijinallığından qaynaqlanmalıdır. F.Nitşeyə görə, insan yalnız öz iradəsinə əsaslandığı təqdirdə həqiqi azadlığa və yaradıcı təbiətə sahib ola bilər.

Yalnız estetik inqilabın deyil, həm də insan varlığının fəlsəfi və ontoloji əsaslarının yenidən qurulması cəhdinin ifadəsi kimi çıxış edən modernizmi köhnə və yeni dünya arasındakı möcüzəvi zaman kəsiyi hesab edən rus filosofu Nikolay Berdyayev qeyd edirdi ki, “Biz min illərin ənənələri ilə qurulan ümumi incəsənətin dərin qatlarında partlayışlar yaradan böhranın içərisindəyik. Köhnə incəsənətin gözəl idealları birdəfəlik sönür, hiss olunur ki, geriyə yol yoxdur” [5].

XX əsrin ilk onilliklərində formalaşan intellektual və mədəni mühit, insanın həm maddi aləmi, həm də mənəvi varlığı haqqında təsəvvürlərinin köklü şəkildə dəyişməsi ilə səciyyələnirdi. “Beləliklə, modernizmin ən azı iki əsrdən bəri davam edən yenilənmə meylinə əlavə olaraq, keçmiş təcrübənin kəskin inkarı meydana çıxır, bu isə əvvəlcə ayrılıq kimi görünən və tarixən təbii qəbul edilən inkişafı “Böyük Oyanış” adlandırılan situasiya ilə əvəz edir” [10, s. 17] deyə Klayv Lyuis qeyd etmişdir.

R.Bart “Böyük Oyanış”ı dünyagörüşlərinin çoxluğu ilə əlaqələndirir. Bu, XIX əsrin ortalarında meydana gələn yeni sosial siniflərin və kommunikasiya vasitələrinin təkamülünün nəticəsi idi. Ədəbiyyatda plüralizm tam parçalanmağa, “Floberdən bu günə qədər sırf linqvistik problemə çevrilməyə” [11, s. 39] səbəb olmuşdur.

Vahid düşüncəni əvəz edən ideoloji plüralizm müxtəlif formalarda ədəbiyyatın obyektinə çevrilmişdir. XX əsrin ortalarına aid romanlarda ideoloji mövqelərin, bəzən isə bir neçə mövqenin toqquşması ümumi motiv kimi ortaya çıxır.

A.Akçurina qeyd edirdi ki, “Modernizm düşünülmüş və mürəkkəb sadəliyin simvolu olaraq mədəniyyət və intellekt məhsuludur. Onun ağır və həddindən artıq işlənmiş olmaması onu incə və zərif bir möcüzəyə bənzədir. İncəsənət əsəri sonsuz gözəllik təqdim etməli və sirenlərin mahnısı kimi heyran etməlidir. Mütləq dəqiqlik, ifadə vasitələrinin incə işlənməsi, … ifadə bolluğu və coşqu … və ya əksinə, minimalizm və kompozisiyanın nizamlı geometrik quruluşu modernizm üslubunun əsas xüsusiyyətləridir” [3, s. 3].

Modernist təfəkkürün ilkin əlamətlərindən biri mövcud adət və ənənələrin, artıq normativ və şablon xarakteri daşıyan klassik mənəvi dəyərlərin inkarı, onların yerinə fərdi təcrübəyə və subyektiv dərkə əsaslanan yeni estetik baxışın irəli sürülməsi idi. Karl Marksın ifadə etdiyi kimi, “modern olmaq bütün əsasların havaya uçduğu dünyanın bir hissəsi olmaq deməkdir” [12, s.12]. K.Marksın fikri sabit mənəvi və sosial dayaqların itirildiyi, bütün dəyərlərin müvəqqəti və dəyişkən xarakter aldığı bu tarixi mərhələnin vəziyyətini dəqiqliklə təsvir edir. Bu mənada modernizm yalnız estetik bir meyil deyil, həm də kollektiv şüurun mexanikləşmiş strukturuna qarşı yönəlmiş fəlsəfi və sosial üsyan idi.

Mürəkkəb və çoxşaxəli fenomen olan modernizm bir neçə xronoloji mərhələyə bölünür. Onlardan birincisi və ən erkəni – dekadentçilik (dekadans) və ya erkən modernizm, XIX əsrin son dövrünü əhatə edir. Növbəti mərhələ XIX əsrin sonundan başlayaraq XX əsrin ortalarına qədər davam edən dövrdür; bu dövr həm də yetkin modernizm adlanır. Üçüncü mərhələ isə modernizmin spesifik bədii təzahürünü ifadə edən avanqardizmlə bağlıdır və XX əsrin 10-cu illərində Avropa ədəbiyyatında yayılmışdır.

Əsasən ənənəvi realist estetikadan uzaqlaşan bədii hadisələri ifadə edən dekadans termini XIX əsrin sonu-XX əsrin əvvəllərində Avropada müşahidə olunan sosial və mədəni böhranlara reaksiyanı və pessimist dünyagörüşünü ifadə edir. XIX əsrin 80-ci illərində Parisdə “Décadence” jurnalı nəşr olunmağa başlamış və “dekadent” ifadəsi ədəbi mübarizədə termin

kimi istifadə edilmişdir. XIX əsrin sonlarından isə bu anlayış eyni və ya oxşar estetik xüsusiyyətlərə malik bir çox ədəbi hadisələrə – impressionizm, simvolizm, estetikizm, formalizm və s. şamil edilmişdir [1, s. 8].

Bütün bəşəriyyəti sarsıdan Birinci Dünya müharibəsinin səbəblərini filosoflar və publisistlər sosial yox, bioloji faktorla – insan təbiətinin dağıdıcı meylləri ilə izah edərək dünyanın bilinməzliyini elan etmiş və irəliləyiş ideyasını rədd etmişlər [2, s. 522]. Bu tarixi mərhələdə yetkin modernizmin inkişafını aydın şəkildə müəyyən etmək mümkündür.

Modernizmin spesifik təzahür formalarından olan avanqardizm sənətdə mövcud normalar və ənənələrlə qəti şəkildə əlaqəni kəsən, bədii ifadə vasitələrinin yeniliyini öz məqsədinə çevirən hərəkat kimi formalaşmışdır. Modernizmin ifrat forması olan avanqard ilkin qaynağa – ilkin sözə, ilkin obraza qayıtmağı, ağ səhifədən başlamağı, guya bütün ənənələrin burjua səciyyəsi daşımasını və köhnəlməsini iddia edib onlardan imtina etməyi təklif etsə də, bu paradiqmaya daxil olur [9, s. 234]. Avanqardizm anlayışı eyni zamanda incəsənətdə futurizm, ekspressionizm, dadaizm, poetizm, sürrealizm və s. kimi ən radikal və üsyankar istiqamətlərin və məktəblərin ümumi məcmusunu ifadə edir.

Modernizmi estetik fenomen kimi şərh edərkən XIX əsr mədəniyyəti ilə müqayisədə onun müəllif konsepsiyasında da köklü dəyişikliklərin baş verməsini müşahidə etmək olar: dünyanı bürüyən böhranlar və sarsıntılar təkcə gerçəkliyi "qəribələşdirmir", müəllifin özünün də bu qəribəliyi adekvat şəkildə əxz və təcəssüm etmək üçün köklü şəkildə dəyişməsini tələb edir. Heç də təsadüfi deyil ki, modernizmin ən görkəmli nümayəndələrindən biri olan T.Eliot yazırdı: "Sənətkarın inkişafı onun daim özünü qurban verməsi, daim öz şəxsiyyətini məhv etməsi ilə bağlıdır" [9, s. 23].

Bütün bu amillər kontekstində modernizmi XX əsrin əvvəllərində, xüsusilə Birinci Dünya müharibəsinin yaratdığı dərin siyasi, psixoloji və sosial böhran şəraitində insanın mənəvi dünyasında yaranmış ümumi çöküşə qarşı intellektual və bədii reaksiya kimi qiymətləndirmək mümkündür. Müharibənin dağıdıcı nəticələri, cəmiyyətin ideoloji və mədəni sütunlarını sarsıtmış, bu isə öz növbəsində modernist mədəniyyətin ədəbiyyat, incəsənət, fəlsəfə və elmin bütün sahələrinə nüfuz etməsinə zəmin yaratmışdır. Beləliklə, modernizm təkcə bir estetik istiqamət deyil, həm də müasir insanın dəyərlər sistemini yenidən formalaşdıran ümumbəşəri mədəni fenomen kimi meydana çıxmışdır.

***Nəticə.*** Modernizm köhnə dünyanın dağılmış dəyərlərinə qarşı yaranmış yeni bədii və fəlsəfi düşüncə formasıdır. O, insanın daxili aləminə, fərdi təcrübəsinə və yaradıcılıq azadlığına əsaslanaraq mədəniyyətin mahiyyətini yenidən müəyyənləşdirmişdir. Modernizm bu mənada yalnız estetik istiqamət deyil, həm də insanın mənəvi və intellektual azadlığının simvoludur.

***Tədqiqatın elmi yeniliyi.*** Məqalədə modernizmin yalnız bədii-estetik hadisə kimi deyil, həm də fəlsəfi, sosial və mənəvi müstəvilərdə formalaşan çoxşaxəli mədəni fenomen kimi təqdim olunması onun mahiyyətinə yeni elmi baxış gətirir. Həmçinin modernizmin XIX-XX əsrlər qovşağında meydana çıxmış ideoloji və intellektual kontekstlə qarşılıqlı əlaqəsinin sistemli şəkildə izah edilməsi elmi yenilik hesab oluna bilər.

***İşin tətbiqi əhəmiyyəti.*** Tədqiqatın nəticələri humanitar elmlərin müxtəlif sahələrində modernizmin nəzəri əsaslarının tədrisi və təhlilində istifadə oluna bilər. Modernizmin ideya-estetik prinsiplərinin sistemləşdirilməsi həm elmi tədqiqatlarda, həm də ali məktəblərdə müvafiq fənlərin proqramlarının hazırlanmasında nəzəri-metodoloji baza kimi tətbiq oluna bilər.

## Ədəbiyyat


1. Андреев, Л.Г. История Зарубежной литературы конца XIX – начала XX вв / Л.Г.Андреев,– Москва: из-во «Высшая школа», – 1978. – 378 с.
2. Андреев, Л.Г. Зарубежная литература XX века / Л.Г.Андреев, – Москва: из-во «Высшая школа», – 2000. – 555 с.

3. Акчурина, А. Модерн, его истоки и проблемы интерпретации. URL: htpp://www.stihi.ru/2014/04/21/1299 . – 11 с. – 2018.
4. Ardoin, P. Understanding Bergson, Understanding Modernism / P.Ardoin, –Bloomsbury Academic. – 2014. – 358 p.
5. Бердяев, Н. Аристократизм против модернизма. URL: https://studfile.net/preview/10584896/page:7/
6. Dictionary of Literary Terms and Literary Theory. The third edition. – London: Penguin, – 1991.
7. Gay, P. Modernism: the lure of heresy from Baudelaair to Beckett and beyond / P.Gay, – New York: W. W. Norton & Co, – 2008.
8. Howe I. Th e Culture of Modernism // Th e Decline of the New. – N. Y.: Harcourt Brace, – 1971.
9. Quliyev, Q. Ədəbi cərəyanlar və istiqamətlər / Q.Quliyev, – Bakı: "OL" NPKT. – 2019. – 260 s.
10. Lewis, C.S. They Asked for a Paper / C.S.Lewis, – London, – 1962, – 211 p.
11. Modernism. A Guide to European Literature 1890-1930 / eds M. Bradbury, J. MacFarlane. Penguin Books, – 1991., – 688 p.
12. Umberto Eco və postmodernizm fəlsəfəsi / – Bakı: Qanun, – 2012, – 204s.

**N.A.Kadirova**

**A Cultural and Philosophical Panorama of the Modernist Era**

***Summary***

This article examines the modernist movement, which emerged as an expression of the profound cultural changes that occurred in art, philosophy, and literature in the late 19th and early 20th centuries. Modernism was characterized by the rejection of old, conservative values and the search for new creative principles. The main goal of modernists was not to express reality, but rather the inner world of man, his experiences on the subconscious and intuitive levels. The article also analyzes the views of scholars such as H.Levine, S.Spender, F.Kermode, and M.Bradbury, who emphasize the ambiguity and contradictions of modernism and conclude that it is both a historical stage and a form of artistic expression.

***Keywords:*** *modernism, philosophy, man, cultural crisis, aesthetic revolution*

**Н.А.Кадырова**

**Культурно-философская панорама эпохи модернизма**

***Резюме***

Статья посвящена исследованию модернистского движения, возникшего как выражение глубоких культурных изменений, произошедших в искусстве, философии и литературе в конце XIX – начале XX веков. Модернизм характеризовался отрицанием старых, консервативных ценностей и поиском новых творческих принципов. Главной целью модернистов было не выражение реальности, а внутреннего мира человека, его переживаний на подсознательном и интуитивном уровнях. В статье также анализируются взгляды таких исследователей, как Х.Левин, С.Спендер, Ф.Кермод и М.Брэдбери, которые подчёркивают неоднозначность и противоречивость модернизма и приходят к выводу, что он является одновременно и историческим этапом, и формой художественного самовыражения.

***Ключевые слова:*** *модернизм, философия, человек, культурный кризис, эстетическая революция*

*Rəyçi: filol.e.d., prof. Q.Quliyev*

*Redaksiyaya daxil olub: 27.10.2025*